


# Quba şəhərində «Soyqırımı Memorial Kompleksi»

Bələdçi kitabçası

# MÜNDƏRİCAT:

Quba şəhərində «Soyqırımı Memorial Kompleksi»nin bələdçi kitabına XOŞ GƏLMİŞSİNİZ!


- **Kompleksin ərazisində ziyarətçilər üçün qaydalar** **səh. 2**
- **Ziyarətçilər üçün yaradılmış şərait** **səh. 3**
- **Kompleksdə ziyarətçilər üçün ekskursiya xəritəsi** **səh. 4**
- **Ziyarətçilərin qoşula biləcəyi proqramlar** **səh. 5**
- **Quba şəhərində «Soyqırımı Memorial Kompleksi»nin direktorunun ziyarətçilərə müraciəti** **səh. 9**




# Azərbaycan tarixinə və 1918-ci il Soyqırımı qurbanlarına hörmət əlaməti olaraq Kompleksin daxili qaydalarına riayət etməyinizi xahiş edirik.

- **Kompleksin ərazisinə və muzeyə giriş üçün qeydiyyatdan keçməli;**
- **Kompleksin ərazisinə və muzeyə bələdçi ilə daxil olmalı ;**
- **Kompleksin ərazisində və muzeydə təmizliyə riayət etməli;**
- **Kompleksin ərazisində və muzeydə sakitliyə riayət etməli;**
- **Müəyyən olunmuş bələdçini dinləməli;**
- **Kompleksin ərazisində və muzey daxilində xüsusi icazə olmadan videoçəkiliş qadağandır;**
- **Kompleksin ərazisində və muzey daxilində fotosessiyalar müvafiq normalara uyğun aparılmalı;**
- **10 yaşdan kiçik uşaqlara şiddət və zorakılığı əks etdirən mövzularda məlumatlar verilərkən həssaslıqla yanaşılmalıdır.**



**Anlayışınıza görə, minnətdarıq!**

# ZİYARƏTÇİLƏR ÜÇÜN YARADILMIŞ ŞƏRAİT

* Ödənişsiz geniş avto dayanacaq;
* Gözəl təbiət mənzərəsi;
* Muzeyə giriş (ödənişsiz);
* 4 dildə (az, ru, eng, ərəb) peşəkar bələdçi xidməti ( ödənişsiz);
* 3 dildə (az,ru,eng) audiogid (ödənişsiz);
* Kitabxana xidməti;
* Maraqlananlar üçün məlumat vərəqəsi və yol xəritəsi;
* Fiziki qüsurlu şəxslər üçün şərait.







1 Məlumat Mərkəzi

Avtomobil dayanacağı

3 Xatirə abidəsi

5 Bayraq meydanı

4 Muzey

Simvolik məzarlıq

2







# QOŞULA BİLƏCƏYİNİZ PROQRAMLAR

* Kompleksdə könüllü kimi fəaliyyət imkanları;
* Əməkdaşlıq (bizim ilə birgə araşdırmalar aparmaq və təbliğatda iştirak etmək);
* Müxtəlif layihələrdə iştirak imkanları;
* Yeni ideya, təşəbbüs və təkliflərin birgə təhlili və həyata keçirilməsi imkanları.



**Ünvan:** AZ 4000,
Azərbaycan Respublikası,
Quba şəhəri, Nəriman Nərimanov küç., 1A

**Tel:** (+994 23) 335 37 07

**Elektron ünvan:**

office@soyqirim.az

elm.dep.qsmk@gmail.com

Sayt: **www.soyqirim.az**

**Guba Genocide Memorial Complex**

**Genocide_memorial_complex**

**Genocide Memorial Complex QSMK**

**Azerbaijan Genocide Memorial Complex**

**Azerbaijan Genocide**

**BİZƏ QOŞUL**

SƏNDƏ BU TARİXİ QORU



**«Biz öz məqsədlərinə nail olmaq üçün heç bir vasitədən çəkinməyən siyasi düşmənlərimizə bənzəyə bilmərik və bənzəmək istəmirik. Biz təmkin və soyuqqanlılıqla, haqlı olduğumuzu tam dərk edərək təmiz vicdanla öz məqsədimizə doğru gedirik və inanırıq ki, ətrafımızda olan bütün xalqlarla münasibətdə loyallığımız, səmimiliyimiz və sadəliyimiz kin və eqoist ehtirasların gözlərini gerçəkliyə qapamadığı hər kəs tərəfindən nəhayət ki, etiraf olunacaq və qiymətləndiriləcək.**

**Fakt göz qabağındadır.**

**Kim istəyirsə yoxlaya bilər".**

**"Azərbaycan" qəzeti,**

**8 dekabr 1918**





**Quba şəhərində «Soyqırımı memorial kompleksi»nin yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Ötən əsrin əvvəllərində erməni-daşnak quldur dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində Bakı, Quba, Qarabağ, Şamaxı, Kürdəmir, Salyan, Lənkəran və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmiş, xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilmişdir. Təkcə Quba qəzasında 1918-ci ilin aprel-may ayları ərzində 122 kənd tamamilə dağıdılmışdır. Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində hədsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanların zorakılığa məruz qaldığı aşkar edilmişdir.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Quba şəhərində «Soyqırımı memorial kompleksi» yaradılsın.

2. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Quba şəhərində «Soyqırımı memorial kompleksi»nin yaradılması üçün Quba Rayon İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 dekabr 2009-cu il № 673**

**Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublıkası prezidentinin Fərmanı** (1998)

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir.Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, Azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 mart 1998-ci il**

**1918**

**31 mart – Azərbaycanın müxtəlif bölgələrində ermənilər tərəfindən törədilmiş soyqırımı**
**28 may – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması**
**26 iyun- Milli Ordunun yaranması**
**27 iyun – Azərbaycan dili haqqında qanun**
**15 iyul –noyabr (2019) – Fövqəladə Təhqiqatl Komissiyasının yaradılması və fəaliyyəti**
**23 avqust – Azərbaycan vətəndaşlığı haqında qanun**
**15 sentyabr – Bakının azad olunması**
**01 noyabr – Hərbi Nazirliyin yaranması**
**09 noyabr – Milli bayrağın qəbul olunması**
**07 dekabr – Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin işə başlaması günü**

**1919**

**Yanvar – Qarabağ general-qubernatorluğunun yaranması**
**28 may – ABŞ prezidenti VudroVilsonun Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətini qəbul etməsi**
**Sentyabr – Milli bankın yaranması**
**Sentyabr – Universitetin fəaliyyəti barədə qanun**

**1920**

**11 yanvar –Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransında defakto olaraq tanınması**
**28 –aprel Azərbaycan Xalq Cümhuriyyətinin süqutu**

# 1918-1920-ci illər, tarixi günlər










# MÜRACİƏT



*Əziz ziyarətçi!*

*Quba şəhərində " Soyqırımı Memorial Kompleksi " türk - müsəlman dünyasında erməni vandalizmini özündə əks etdirən yeganə ideoloji mərkəz və ilk Cümhuriyyət şəhidlərinin- 1918 ci ildə soyqırıma məruz qalmış günahsiz insanların uyuduğu müqəddəs yerdir . Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918 - ci və sonra ki illərdə bütün ölkə hüdudlarında həyata keçirtdikləri cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması , Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması , soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə tarixi həqiqətlərin üzə çıxarılması istiqamətində Kompleksimizdə elmi araşdırmalar aparılır , beynəlxalq tədbirlər və təbliğat kompaniyaları keçirilir, çap məhsulları hazırlanır və müxtəlif çox saylı layihələr həyata keçirilir . Soyqırımı hadisələri hansı ölkədə törədilməsindən aslı olmayaraq bu insanlığa qarşı çevrilmiş ümumbəşəri cinayətdir və bizlər hər zaman dinc sakinlərə qarşı çevrilmiş və terrora əsaslanan faşizm hərəkətlərinə qarşı öz etirazimizi bildirməli , gələcəkdə bir daha bu kimi dəhşət dolu vandalizm hərəkətlərinin təkrarlanmaması üçün birlik nümayiş etdirməliyik .*

*Tarixinə sahib çıxan xalq məğlubedilməzdir !*

*Diqqətinizə görə minnətdaram!*

***Quba şəhərində «Soyqırımı Memorial Kompleksi»nin direktoru***

***Tarix üzrə fəlsəfə doktoru***

***Rəxşəndə Bayramova***